# Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra «Razılığa gələn Tərəflər» adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti,

Gömrük qanunlarının pozulmasının onların iqtisadi, ticarət, maliyyə, ictimai və mədəni maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

Malların idxalı və ya ixracı zamanı gömrük rüsumları, vergiləri və digər ödəniş və yığımların dəqiq tutulması və toplanmasının təmin edilməsinin vacibliyini və qadağan, məhdudiyyət və nəzarət müddəalarının həyata keçirilməsinin təmin edilməsinin zəruriliyini nəzərə alaraq,

Gömrük hüquqpozmasına qarşı tədbirlərin gömrük idarələri arasında sıx əməkdaşlıq yolu ilə daha səmərəli olacağını qəbul edərək,

Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinin artan miqyasları və istiqamətləri ilə maraqlanaraq və bunun əhalinin sağlamlığı və cəmiyyət üçün təhlükəli olmasını nəzərə alaraq,

İkitərəfli qarşılıqlı əməkdaşlığa münasib şərait yaradan Razılığa gələn Tərəflər üçün qüvvədə olan beynəlxalq konvensiyaları, həmçinin Ümumdünya Gömrük Təşkilatının Tövsiyələrini nəzərə alaraq aşağıdakılar barədə razılığa gəldilər:

## *Maddə 1. Təriflər*

Bu Sazişin məqsədləri üçün:

a) «Gömrük idarəsi» — Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi; Pakistan İslam Respublikasında Gəlirlər üzrə Mərkəzi İdarə;

b) «Gömrük qanunları» — malların idxalı, ixracı, tranzitinə və ya gömrük idarələri tərəfindən toplanılan gömrük rüsumları, vergilər və ya digər ödənişləri, yaxud gömrük idarələri tərəfindən həyata keçirilən qadağan, məhdudiyyət və ya nəzarət tədbirləri ilə əlaqədar hər hansı digər gömrük prosedurlarına dair qanun və qaydalarla müəyyən edilmiş müddəalar;

c) «Gömrük pozuntusu» — gömrük qanunlarının hər hansı şəkildə pozulması və ya pozulmasına yönəldilmiş hər hansı cəhd;

ç) «Sorğu göndərən Tərəf» — yardım üçün sorğu göndərən gömrük idarəsi;

d) «Sorğu alan Tərəf» — yardım üçün sorğu alan gömrük idarəsi;

e) «Narkotik vasitələr» — müvafiq düzəlişlər edilmiş 1961-ci il Narkotik vasitələr haqqında Vahid Konvensiyasının I və II siyahılarına daxil edilmiş təbii və ya sintetik maddələr;

ə) «Psixotrop maddələr» — 1971-ci il Psixotrop maddələr haqqında BMT Konvensiyasının I, II, III və IV siyahılarına daxil edilmiş təbii və ya sintetik maddələr;

f) «Prekursorlar» — 1988-ci il narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı BMT-nin Konvensiyasının I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalı zamanı nəzarət altında istifadə olunan kimyəvi maddələr.

## *Maddə 2. Sazişin tətbiq dairəsi*

1. Razılığa gələn Tərəflər bu Sazişdə əks olunmuş müddəalara uyğun olaraq gömrük qanunlarına düzgün əməl edilməsi məqsədilə bir-birlərinə aşağıdakı kimi yardım göstərməlidirlər:

a) sərnişinlərin gediş-gəlişini və malların keçirilməsini sadələşdirmək və tezləşdirmək məqsədilə tədbirlər həyata keçirəcəklər;

b) gömrük qanunlarının pozulmasının qarşısının alınması və təhqiq edilməsində əməkdaşlıq edəcək və bir-birlərinə yardım göstərəcəklər;

c) sorğu əsasında gömrük qanunlarının həyata keçirilməsində istifadə olunacaq digər məlumatla təmin edəcəklər;

ç) yeni gömrük prosedurlarının tədqiq, inkişaf və tətbiq edilməsində, əməkdaşların təlim və mübadiləsində və qarşılıqlı maraq doğuran digər məsələlərə dair əməkdaşlığa cəhd göstərəcəklər.

2. Bu Sazişə uyğun olaraq qarşılıqlı yardım Sorğu alan Tərəf dövlətin ərazisində qüvvədə olan qanunlara müvafiq olaraq və gömrük idarələrinin səlahiyyətləri və imkanları daxilində həyata keçirilməlidir.

3. Bu Saziş Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində tətbiq olunacaqdır.

## *Maddə 3. Şəxslər, mallar və nəqliyyat vasitələri üzərində nəzarət*

Gömrük idarələri öz xüsusi təşəbbüsü, yaxud sorğu ilə aşağıdakılar üzərində nəzarəti təmin etməlidir:

a) gömrük qanunlarını pozması məlum olan və ya şübhə doğuran və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsində iştirak edən şəxslər;

b) gömrük huquqpozmalarında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınması məqsədilə istifadə olunması məlum olan və ya şübhə doğuran mallar;

c) gömrük hüquqpozmalarında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınması məqsədilə istifadə olunması məlum olan və ya şübhə doğuran hər hansı nəqliyyat vasitəsi;

ç) qeyri-qanuni daşınmada istifadə olunması şübhə doğuran poçt bağlamaları.

### Maddə 4. Xüsusi malların qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə Razılığa gələn Tərəfin gömrük qanunlarını pozan və ya poza biləcək nəzərdə tutulmuş və ya həyata keçirilmiş hər hansı təşkil olunmuş tədbir barədə aşağıdakılara dair bütün müvafiq məlumatla təmin edəcəklər:

a) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsi;

b) silah, döyüş sursatı, partlayıcı maddə və nüvə materiallarının, həmçinin ətraf mühit və əhalinin sağlamlığı üçün təhlükəli olan digər maddələrin daşınması;

c) tarixi, mədəni və ya arxeoloji sərvətlər olan əşyaların daşınması;

ç) yüksək gömrük rüsumları və vergiləri tutulmalı olan malların daşınması.

### Maddə 5. Məlumat mübadiləsi

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə aşağıdakı məsələlərə dair daha səmərəli prosedurların həyata keçirilməsinə kömək edə biləcək bütün məlumatlarla təmin edəcəklər:

a) gömrük dəyərinin müəyyən edilməsi, idxal və ya ixrac zamanı təqdim olunmuş sənədlərin eyniləşdirilməsi, həmçinin bu sənədlərdə olan məlumatın həqiqiliyi;

b) gömrük tarifinə əsasən malların təsnifatı, həmçinin başlıqlara uyğun olaraq malların tarif təsnifatı məqsədilə laboratortiyalarda təhlillərin həyata keçirilməsi;

c) malların mənşəyinin müəyyən edilməsi və ixrac zamanı təqdim edilən mənşə sertifikatına nəzarət, həmçinin ixrac ölkəsində malların gömrük proseduruna nəzarət (gömrük nəzarəti altında tranzit, gömrük anbarı, müvəqqəti idxal, azad ticarət zonası, malların gömrük ərazisində emalından sonra ixrac və s.).

### Maddə 6

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə aşağıdakı məlumatlarla təmin etməlidirlər:

a) Razılığa gələn bir Tərəf dövlətin ərazisinə idxal olunmuş malların Razılığa gələn digər Tərəf dövlətin ərazisindən qanuni yolla ixrac olunması;

b) Razılığa gələn bir Tərəf dövlətin ərazisindən ixrac olunan malların Razılığa gələn digər Tərəf dövlətin ərazisinə qanuni yolla idxal olunması.

### Maddə 7

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə iki dövlətin ərazisində qüvvədə olan gömrük qanunlarının pozulması ilə bağlı məlumatla, xüsusilə də aşağıdakılara dair məlumatla təmin edəcəklər:

a) gömrük qanunlarını pozan və ya pozması şübhə doğuran və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsində iştirak edən və ya iştirak etməsi şübhə doğuran fiziki və hüquqi şəxslər;

b) gömrük hüquqpozmalarında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınmasında istifadə olunan və ya istifadə olunduğu şübhə doğuran mallar;

c) gömrük qanunlarının pozulmasında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınmasında istifadə olunan və ya istifadə olunduğu şübhə doğuran nəqliyyat vasitəsi.

### *Maddə 8*

Əgər sorğu alan Tərəfin gömrük idarəsi tələb olunan məlumata malik deyilsə, həmin idarə öz dövlətinin ərazisində qüvvədə olan qanunlara uyğun olaraq bu məlumatı özü üçün əldə etmək məqsədilə tədbir gördüyü kimi tədbir görməlidir.

### *Maddə 9*

1. Razılığa gələn Tərəflərin birinin gömrük idarəsi öz xüsusi təşəbbüsü, yaxud sorğu ilə Razılığa gələn digər Tərəfin gömrük idarəsini digər dövlətin ərazisində qüvvədə olan gömrük qanunlarını pozan və ya poza biləcək, həyata keçirilmiş və ya nəzərdə tutulmuş tədbirlər barədə məlumatlara dair gömrük sənədləri, yükü müşayiət edən sənədləri, şahidlik ifadələrini və sənədlərin təsdiq olunmuş surətləri ilə təmin etməlidir.

2. Razılığa gələn digər Tərəfə verilmiş məlumat bu Saziş ilə müəyyən edilmiş sənədlər əvəzinə hər hansı elektron vasitəsilə göndərilə bilər. Qeyd olunmuş məlumatın şərhi və tətbiqi üçün zəruri olan izahlar ora daxil edilməlidir.

### *Maddə 10. Yardım üçün sorğunun forma və məzmunu*

1. Sorğular bu Sazişə uyğun olaraq yazılı şəkildə verilməlidir. Sorğunun həyata keçirilməsi üçün lazım olan sənədlər sorğuya əlavə olunmalıdır. Müstəsna hallarda sorğular şifahi şəkildə verilə bilər, lakin dərhal yazılı şəkildə təsdiq olunmalıdır.

2. Bu maddənin 1-ci bəndinə əsasən sorğuya aşağıdakılar daxil edilməlidir:

a) sorğu göndərən gömrük idarəsinin adı;

b) tələb olunan tədbirlər;

c) sorğunun mövzusu və səbəbləri;

ç) sorğunun mövzusuna aid olan qanunlar və digər hüquqi aktlar;

d) təhqiqata cəlb olunmuş fiziki və hüquqi şəxslər barəsində ən dəqiq və müfəssəl məlumatlar;

e) sorğunun mövzusu ilə bağlı müvafiq faktların qısa məzmunu.

3. Sorğular ingilis dilində təqdim edilməlidir.

4. Əgər sorğu bu maddənin 2-ci və 3-cü bəndlərinin tələblərinə cavab vermirsə, bu sorğuda düzəliş edilmə tələb oluna bilər.

## *Maddə 11. Gömrük təhqiqatları*

1. Razılığa gələn bir Tərəfin gömrük idarəsi sorğu göndərirsə, Razılığa gələn digər Tərəfin gömrük idarəsi sorğu göndərən Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunlarını pozan və ya poza biləcək fəaliyyətlərin təhqiqatına başlayır. Bu cür təhqiqatların nəticələri sorğu göndərən Tərəfin diqqətinə təqdim olunmalıdır.

2. Bu təhqiqatlar sorğu alan Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunlara uyğun olaraq həyata keçirilməlidir. Sorğu alan Tərəf özü üçün fəaliyyət göstərdiyi kimi fealiyyət göstərməlidir.

3. Sorğu göndərən bir Tərəfin gömrük idarəsinin vəzifəli şəxsləri, xüsusi hallarda, sorğu alan digər Tərəfin gömrük idarəsinin razılığı olduqda müvafiq dövlətin gömrük qanunlarının pozulmasının təhqiqatlarında Razılığa gələn həmin Tərəfin ərazisində iştirak edə bilər. Onlar bunun üçün öz rəsmi səlahiyyətlərini sübut etməlidirlər.

4. 3-cü bəndə uyğun olaraq sorğu alan Tərəfin ərazisində iştirak edən sorğu göndərən Tərəfin gömrük idarəsinin əməkdaşı yalnız məsləhətçi kimi fəaliyyət göstərməli və heç bir halda təhqiqatda fəal iştirak etməməli, təhqiq olunan şəxslərlə görüşməməli və hər hansı bir təhqiqat fəaliyyətində iştirak etməməlidir.

## *Maddə 12. Məlumat və sənədlərdən istifadə edilməsi*

1. Bu Saziş üzrə alınan məlumat, sənədlər və faktlar bu Sazişlə müəyyən edilmiş məqsədlərdən başqa, digər məqsədlər üçün istifadə olunmamalıdır. Bu məlumat, sənəd və faktlar digər məqsədlər üçün onları təqdim etmiş gömrük idarəsinin yazılı şəkildə icazəsi olduqda istifadə oluna bilər.

2. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsinə dair məlumat və sənədlər Razılığa gələn Tərəflərin narkotik vasitələrin sui-istifadəsinə və narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsinə nəzarət ilə məşğul olan digər hökumət orqanlarına da təqdim edilə bilər.

3. Bu Sazişə uyğun olaraq hər hansı formada göndərilən sorğu və təqdim edilən məlumatlar konfidensial xarakter daşımalıdır. Bunlar konfidensial şəkildə saxlanmalı və eyni xarakterli məlumat və sənədlərə şamil edilən sorğu alan Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunların müdafiəsi altında olacaqdır.

## *Maddə 13*

1. Məlumat və sənədlərlə təmin olunmuş gömrük idarəsi bu Sazişə uyğun olaraq onların məqsədləri və səlahiyyətindən asılı olaraq inzibati və məhkəmə proseslərində və məhkəmə ittihamnamələrində həmin məlumat və sənədlərdən şahid ifadəsi kimi istifadə edə bilər.

2. Bu cür sənəd və məlumatlar məhkəmədə dəlil kimi istifadə edilə bilər və onların hüquqi statusu məlumat və sənədləri alan gömrük idarəsinin dövlətinin milli qanunlarına uyğun olaraq müəyyən edilməlidir.

## *Maddə 14. Ekspertlər və şahidlər*

1. Sorğu alan Tərəfin gömrük idarəsi sorğu əsasında öz vəzifəli şəxslərinə onların razılığı ilə sorğu göndərən Tərəfin hüquqi və ya inzibati orqanları qarşısında ekspert və ya şahid kimi iştirak etmək səlahiyyəti verə bilər. Belə vəzifəli şəxslər vəzifələrinin icrası zamanı onlar tərəfindən əldə olunmuş sübutlar barədə ifadə verməlidirlər.

2. Sorğu göndərən Tərəfin gömrük idarəsi bu Maddənin 1-ci bəndinə əsasən vəzifəli şəxslər öz dövlətinin ərazisində olarkən, onların şəxsi təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirlər görməlidir. Bu vəzifəli şəxslərin nəqliyyat və gündəlik xərcləri sorğu göndərən Tərəfin gömrük idarəsi tərəfindən ödənilməlidir.

3. İştirak etmək üçün göndərilən sorğuda vəzifəli şəxsin hansı işdə və hansı qisimdə iştirak edəcəyi aydın şəkildə göstərilməlidir.

4. Gömrük orqanlarının vəzifəli şəxslərinin ekspert və şahidlər kimi iştirak etməsi üçün sorğu Razılığa gələn Tərəflərin qanunlarına uyğun olaraq tərtib edilməlidir.

## *Maddə 15. Yardım göstərmək öhdəliyindən istisnalar*

1. Əgər sorğu alan Tərəf sorğunun yerinə yetirilməsinin öz dövlətinin suverenliyi, təhlükəsizliyi və ya digər mühüm maraqlarına zərər gətirə biləcəyini hesab edirsə, həmin Tərəf bu Saziş üzrə tələb olunan yardımdan tamamilə və yaxud qismən imtina edə və ya bu yardımı yalnız müəyyən şərtlər və tələblər yerinə yetirdikdə göstərə bilər.

2. Əgər sorğu göndərən Tərəf yardım üçün müraciət edirsə və özü bu yardımı Razılığa gələn digər Tərəfə göstərmək iqtidarında deyilsə, bu fakt sorğu edilən zaman qeyd olunmalıdır. Bu sorğunun həyata keçirilməsi sorğu alan Tərəfin qərarından asılıdır.

3. Yardımdan imtina olunduğu təqdirdə imtinanın səbəbi gecikdirilmədən yazılı şəkildə sorğu göndərən Tərəfə təqdim edilməlidir.

## *Maddə 16. Gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması*

Gömrük idarələri, qarşılıqlı surətdə razılaşdırıldığı kimi, malların Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisindən keçirilməsini sadələşdirmək və tezləşdirmək məqsədilə gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması üçün lazımi tədbirlər həyata keçirəcəklər.

## *Maddə 17. Texniki yardım*

Gömrük idarələri bir-birinə gömrük işi sahəsində aşağıdakılara dair texniki yardım göstərə bilərlər:

a) gömrük nəzarətinin tətbiq olunan təkmilləşdirilmiş vasitələri ilə tanışlıq üçün gömrük orqanları vəzifəli şəxslərinin mübadiləsi;

b) texniki nəzarət vasitələrinə dair tətbiq olunan məlumat və ekspertiza mübadiləsi;

c) gömrük orqanları vəzifəli şəxslərinin təlim və yenidən təlim edilməsi;

ç) gömrük işi sahəsində ekspertlər mübadiləsi;

d) gömrük müddəalarının tətbiqi ilə bağlı xüsusi, elmi və texniki məlumatların mübadiləsi.

### *Maddə 18. Xərclər*

Razılığa gələn Tərəflər bu Sazişə uyğun olaraq dövlət xidmətlərindən asılı olmayan ekspertlərə, şahidlərə, təfsirçilərə və tərcüməçilərə ödənilmiş vəsait istisna olmaqla, çəkilmiş xərclərin ödənilməsinə dair bütün iddialardan imtina etməlidirlər.

### *Maddə 19. Sazişin həyata keçirilməsi*

1. Bu Sazişlə nəzərdə tutulmuş əməkdaşlıq və qarşılıqlı yardım Razılığa gələn Tərəflərin gömrük idarələri tərəfindən həyata keçirilməlidir. Bu məqsəd üçün həmin orqanlar qarşılıqlı surətdə sənədləri razılaşdırmalıdırlar.

2. Razılığa gələn Tərəflərin gömrük idarələrinin nümayəndələri bu Sazişin müddəalarının həyata keçirilməsini təhlil etmək və Razılığa gələn Tərəflərin gömrük idarələri arasında əməkdaşlıq və qarşılıqlı yardımın digər praktiki məsələlərini həll etmək məqsədilə, lazım olduğu təqdirdə, ən azı ildə bir dəfə növbə ilə bir və ya digər dövlətin ərazisində görüş keçirməlidirlər.

3. Razılığa gələn Tərəflərin gömrük idarələri bu Sazişin praktiki tətbiq olunma metodlarını birgə müəyyən etməlidirlər.

4. Bu Sazişin məqsədləri üçün Razılığa gələn Tərəflərin gömrük idarələri əlaqə saxlamaq üçün məsul olan vəzifəli şəxsləri təyin edəcək və həmin vəzifəli şəxslərin adlarını, vəzifələrini, telefon və faks nömrələrini göstərən siyahının mübadiləsini həyata keçirəcəklər. Onlar həmçinin öz təhqiqat bölmələrinin bir-birləri ilə birbaşa əlaqə saxlamaları üçün tədbir görə bilərlər.

### *Maddə 20. Mübahisəli məsələlərin həlli*

Bu Sazişin təfsiri və tətbiq edilməsi ilə əlaqədar bütün mübahisəli məsələlər Razılığa gələn Tərəflər arasında danışıqlar yolu ilə həll olunacaqdır.

### *Maddə 21. Dəyişiklik və əlavə*

Bu Sazişə dəyişiklik və əlavə Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında ediləcəkdir. O, 22-ci maddənin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

### *Maddə 22. Sazişin qüvvəyə minməsi və ləğv edilməsi*

Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan bütün milli hüquqi prosedurların yerinə yetirilməsi barədə bir-birinə diplomatik kanallarla yazılı şəkildə məlumat verdikdən sonra ikinci ayın birinci günü qüvvəyə minir.

Bu Saziş beş il müddətində qüvvədə olacaq və bu müddətin bitməsinə ən azı üç ay qalmış Razılığa gələn Tərəflərdən biri onun qüvvəsini ləğv etmək niyyəti haqqında Razılığa

gələn digər Tərəfə yazılı bildiriş verməzsə, Sazişin qüvvəsi avtomatik olaraq sonrakı beş illik müddətə uzadılır.

Razılığa gələn Tərəflər bu Sazişi nəzərdən keçirmək məqsədilə, bir-birini belə nəzərdən keçirmənin zəruri olmadığı barədə yazılı şəkildə xəbərdar etmədikləri təqdirdə, sorğu əsasında və ya onun qüvvəyə mindiyi tarixdən etibarən beşinci ilin sonunda görüşəcəklər.

Bunları təsdiq edərək, müvafiq səlahiyyətə malik aşağıda imza edənlər bu Sazişi imzalamışlar.

Bu Saziş Bakı şəhərində 2004-cü il iyulun 8-də iki nüsxədə hər biri Azərbaycan və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı hər hansı fikir ayrılığı yaranarsa, ingilis dilindəki mətndən istifadə olunacaqdır.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Hökuməti adından*** | ***Pakistan İslam Respublikası Hökuməti adından*** |
| ***(imza)*** | ***(imza)*** |

***Azərbaycan Respublikasının 10 sentyabr 2004-cü il tarixli, 737-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir ( «VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 2004-cü il, № 10, maddə 765) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*